**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2009-cu ilin yanvar-dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

İqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan Ümumi Daxili Məhsul 2009-cu ilin yanvar-dekabr aylarında ötən ilin mavafiq dövrü ilə müqayisədə 9,3 faiz, yaxud müqayisəli qiymətlərlə 3,7 milyard manat artaraq 34,6 milyard manata çatmışdır. Ümumi Daxili Məhsulun əhalinin hər nəfərinə düşən həcmi 3917,3 manat və ya 4874,1 ABŞ dolları təşkil etməklə 7,9 faiz artmışdır.

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində məhsul istehsalı keçən ilin yanvar-dekabr ayları ilə müqayisədə 8,6 faiz artmışdır.Sənaye məhsulunun 75,7 faizi mədənçıxartma bölməsində, 18,9 faizi emal bölməsində istehsal olunmuşdur.

ÜDM-in 64,1 faizi iqtisadiyytın istehsal sahələrinin, 28,3 faizi xidmət sahələrinin payına düşmüşdür.

Bu dövrdə sənayedə 17282,5 milyon manatlıq, yaxud ÜDM-in 50,0 faizi qədər, kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında 2320,6 milyon manatlıq (6,7 faiz), tikintidə 2562,2 milyon manatlıq (7,4 faiz), **nəqliyyatda 2263,4 milyon manatlıq (6,6 faiz)**, topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər sahələrində 2423,0 milyon manatlıq (7,0 faiz), rabitədə 684,2 milyon manatlıq (2,0 faiz), mehmanxana və restoranlarda xidmət sahələrində 354,2 milyon manatlıq (1,0 faiz), sosial və digər xidmətlər sahələində 4050,4 milyon manatlıq (11,7 faiz) əlavə dəyər yaranmışdır.

Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,5 faizini təşkil etmişdir.

ÜDM-in istehsalında **nəqliyyat xidmətlərinin** həcmi küçən ilin müvafiq dövrünə nisbətən 9,3 faiz artmışdır.

**2009-cu ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2009-cu ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 7358,7 milyon manat məbləğində investisiyalar yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin 79.9 faizini daxili investisiyalar, 20.1 faizini xarici investisiyalar təşkil etmişdir. Daxili investisiyanın 70.4 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 29.6 faizi qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 3521,9 milyon manat ( ümumi investisiyanın 47,9 faizi), bank kreditləələri 384,7 milyon manat (5,2 faizi), büdcə vəsaitləri 2678,0 milyon manat (36,4 faizi), büdcədənkənar fondların vəsaitləri 473,9 milyon manat (6,4 faizi), əhalinin şəxsi vəsaitləri 299,7 milyon manat (4,1 faizi), digər vəsaitlər isə 0,5 milyon manat təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2009 -cu ildə əsas kapitala yönəldilmiş bütün investisiyanın 40,9 faizi (3009,3 milyon manatı) sənaye sahələrinin inkişafına, 3,5 faizi (254,0 milyon manatı) kənd təsərrüfatına, 2,9 faizi (215,9 milyon manatı) ticarət və xidmətə, **23,8 faizi (1749,6 milyon manatı) nəqliyyata**, 1,9 faizi (142,2 milyon manatı) rabitəyə, 8,8 faizi (644,8 milyon manatı) mənzil tikintisinə, 1,5 faizi (106,3 milyon manatı) təhsilə, 2,1 faizi (155,8 milyon manatı) səhiyyəyə, 4,0 faizi digər sahələrə sərf edilmişdir.

Əsas kapitala yönəldilmiş ümumi investisiyanın 5374,1 milyon manatı (73,0 faizi) qeyri-neft bölməsinin, 1984.6 milyon manatı (27,0 faizi) neft sektorunun inkişafında istifadə edilmişdir.

Ölkə iqtisadiyyatının əsas infrastrukturlarından biri olan nəqliyyat sektoru inkişafdadır. 2009-cu ildə də nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. işlər davam etmiş, həyata keçirilmiş transmilli layihələr sahənin inkişafına öz müsbət təsirini göstərmişdir.

2009-cu il ərzində nəqliyyat sektorunda yük daşınması 2008-ci ilə nisbətən 3,7 faiz, yük dövriyyəsi isə 10,1 faiz artmış, son beş ildə bu göstəricilərin artımı müvafiq olaraq 1,6 və 4,2 dəfə təşkil etmişdir.

**Son 5 ildə nəqliyyat sektorunda yük daşınması və yük dövriyyəsinin dinamikası**




Ötən ildə nəqliyyat müəssisələri və fərdi sahibkarlar tərəfindən göstərilmiş nəqliyyat xidmətlərinin ümumi həcmi 2008-ci ilə nisbətən 7,8 faiz artmışdır.

Nəqliyyat vasitələri ilə daşınmış 189,8 milyon ton yükün 49,7 faizi avtomobil, 32,7 faizi boru kəməri, 10,7 faizi dəmir yolu, 6,9 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 10,1 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 73,7 faiz təşkil etmişdir.

**2004-2009-cu illərdə yük daşınması və yük dövriyyəsinin Dinamikası**

| İllər | Yük daşınması, min ton | 2004-cü ilə nisbətən, faizlə | Yük dövriyyəsi, milyon ton-km | 2004-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| 2004 | 117 314 | 100.0 | 23 283 | 100.0 |
| 2005 | 128 328 | 109.4 | 26 534 | 140.0 |
| 2006 | 145 596 | 124.1 | 43 294 | 185.9 |
| 2007 | 167 533 | 142.8 | 78 007 | 3.4d |
| 2008 | 183 093 | 156.1 | 88 607 | 3.8d |
| 2009 | 189 846 | 161.8 | 97 531 | 4.2d |

Son 5 ildə bütün nəqliyyat növləri ilə yük daşınması orta hesabla hər il 10,1 faiz, o cümlədən avtomobil nəqliyyatında 7,6 faiz, boru kəməri nəqliyyatında isə 27,9 faiz çoxalmışdır.

**Yük daşınmasının ayrı-ayrı nəqliyyat növləri üzrə strukturu, yekuna nisbətən**




2009-cu ilin yekunları üzrə nəqliyyat sektorunda xidmət göstərilmiş sərnişinlərin sayı 1,3 milyard nəfər olmaqla, əvvəlki illə müqayisədə 6,9 faiz artmışdır. Bu sahədəki fəaliyyətin 83,9 faizi qeyri-dövlət bölməsinin payına düşmüş, sərnişinlərin 83,9 faizi avtomobil, 15,5 faizi metro nəqliyyatı ilə daşınmışdır

**Yük v ə sərnişin daşınmasında özəl bölmənin payı, faizlə**



**Dəmir yolu nəqliyyatı** ilə 20,3 milyon ton yük daşınmış, orta hesabla sutkada 631 vaqon yüklənmiş, 487 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 29,7 min ton, Qərb istiqaməti üzrə 3,8 min ton, Cənub istiqaməti üzrə isə 2,7 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 10,9 faiz artmış və 13,2 milyon ton təşkil etmişdir. Yüklərin dörddə üç hissəsini neft yükləri, dörddə bir hissəsini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Bu nəqliyyat növündə yük dövriyyəsi 1,6 faiz artmış və 6,2 milyard ton-km təşkil etmişdir. Ötən ildə donanmaya yükgötürmə qabiliyyəti 13,5 min ton olan bir maye yük daşıyan gəmi alınmış və gəmilərin sayı 80-ə çatdırılmışdır. İl ərzində **Bakı Beynəlxalq Dəniz Ticarət Limanında** 5,1 milyon ton yükləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 84,1 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 5,4 faiz, ixrac yüklərinin həcmi 21,5 faiz azalmış, idxal yüklərinin həcmi isə 1,6 dəfə artmışdır. 2010-cu il yanvarın 1-i vəziyyətinə limanda göndərilmək üçün 18,6 min ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 46,9 faiz az idxal yüklərin qalığı mövcud olmuşdur. İl ərzində tam registr tutumu 2,8 milyon ton olan 526 gəmi limana daxil olmuş, onların 461-i boşaldılmış, 65-i isə yüklənmişdir. Əvvəlki illə müqayisədə boşaldılmış gəmilərin sayı 6,0 faiz artmışdır.

Nəqliyyatda daha böyük xüsusi çəkiyə malik olmaqla ən sabit sürətlə inkişaf edən sahə **avtomobil nəqliyyatıdır.** 2009-cu ildə ölkədəki mövcud avtonəqliyyat vasitələrinin sayı əvvəlki illə müqayisədə 65,8 min ədəd artaraq 925,9 min ədəd təşkil etmişdir. Əhalinin hər 1000 nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1,7 artaraq 105 ədəd olmuşdur. Avtomobillərin 82,0 faizini minik avtomobilləri, 12,7 faizini yük avtomobilləri, 3,2 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı və digər avtomobillər təşkil etmişdir. 2009-cu ildə avtomobil nəqliyyatı ilə fiziki şəxslərin - fərdi sahibkarların fəaliyyəti də nəzərə alınmaqla 94,2 milyon ton yük, 1,1 milyard sərnişin daşınmış və 2008-ci illə müqayisədə müvafiq olaraq 7,1 və 7,8 faiz artmışdır. Sərnişinlərin 96,6 faizi avtobus, 3,4 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Avtomobil nəqliyyatı ilə yük və sərnişin dövriyyəsində artım müvafiq olaraq 6,9 və 8,9 faiz təşkil etmişdir.

**Metro nəqliyyatının** xidmətlərindən il ərzində istifadə edən sərnişinlərin sayı əvvəlki illə müqayisədə 2,9 faiz çoxalaraq 206,1 milyon sərnişin təşkil etmişdir.

**Hava nəqliyyatı** ilə 941,2 min sərnişin daşınmış, daşınmanın 89,8 faizi dövlət bölməsinə, 10,2 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. İl ərzində hava nəqliyyatı ilə 31,8 min ton yük daşınmış, onun 87,1 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

**Magistral neft kəmərləri** ilə 50,5 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 38,2 milyon ton neft ötürülmüşdür. İl ərzində BTC kəməri ilə Azərbaycan nefti ilə yanaşı, ölkə ərazisindən 1,9 milyon ton Qazaxıstan nefti də nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 11,6 milyon ton və ya əvvəlki illə müqayisədə 2,5 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın üçdə bir hissəsi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 5,2 milyard kub-metr qaz ötürülmüşdür.

2009-cu ilin yanvar-noyabr aylarında **Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin** Azərbaycan ərazisindən keçən hissəsində 39,6 milyon ton yük, 188,4 milyon sərnişin daşınmışdır. Yüklərin 44 3 faizi dəmir yolu, 37,2 faizi avtomobil, 18,5 faizi dəniz nəqliyyatı ilə daşınmış və ölkənin nəqliyyat sektorunda daşınmış bütün yüklərin 23,2 faizini təşkil etmişdir.

Daşımalardan 218,6 milyon manat gəlir əldə edilmiş, gəlirlərin 48,8 faizi dəmir yolu, 26,8 faizi dəniz, 24,4 faizi isə avtomobil nəqliyyatının fəaliyyəti nəticəsində əldə edilmişdir.

2009-cu ilin yanvar-noyabr aylarında nəqliyyat müəssisələrində 68,4 min işçi çalışmış, onların orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 18,9 faiz artaraq 361,7 manat təşkil etmişdir.